# Ekoloji terrorun nəticələrini aradan qaldırmağa uzun illər lazımdır

***Ekoloji terror – konkret ölkə və ya şəxs tərəfindən digər ölkənin ətraf mühitinə, flora və faunasına zərər yetirmək, təbii sərvətlərini məhv etməklə məqsədli şəkildə vurulan ziyandır. Ermənistanın təcavüzkar siyasəti nəticəsində ölkəmizin təbiətinə, bioloji müxtəlifliyinə, su ehtiyatlarına, fauna və florasına ciddi ziyan vurulmuşdur. Hazırda işğaldan azad olunmuş ərazilərdə qiymətli sərvətlər dağıdılmış və Ermənistana daşınmışdır, min hektarlarla meşə sahəsi qəsdən yandırılmışdır.***

Prezident İlham Əliyev Kəlbəcərin işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində demişdir: "Kəlbəcər rayonunda 24 min hektar meşə ərazisi var. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün, son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldur, meşələri yandırırlar ki, ekoloji faciə, fəlakət yaratsınlar".

Elə Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda və Şuşada da ekoloji terror törədilmişdir. Faktlara müraciət edək: məlumatlara əsasən, işğala məruz qalan torpaqlarımızda 280 min hektar meşə sahəsi var idi. Bundan 13197,5 hektarı qiymətli ağac növləri olmuşdur. İşğaldan azad olunmuş Zəngilan, Ağdam, Kəlbəcər, Qubadlı və digər rayonlarda qiymətli agac növlərinin çoxu yarımfabrikat kimi xarici ölkələrə daşınmışdır. Ermənistan ekoloji terrorunun davamı olaraq noyabr ayında Şuşa şəhəri ətrafında Topxana meşəsini zəhərli və dünyada istifadəsi qadağan olunmuş ağ fosfor maddəsindən istifadə edərək yandırmış, döyüş bölgəsindən uzaqda yerləşən Ağgöl və Göygöl milli parkları ərazilərinə raket ataraq yangın törətmişdir. İşğaldan azad olunmuş Zəngilan rayonu ərazisində 117 hektar dünyada anoloqu olmayan təbii çinar meşəsi vardı. Onun 107 hektarı Bəsitçay Dövlət Qoruğu ərazisində idi. Həmin çinar meşəsində ağacların əksəriyyəti qırılıb, kökündən çıxarılaraq doğranıb mebel sexlərinə, xarici ölkələrə daşınmış, qoruq ərazisi də ekoloji terrora məruz qalmışdır. Eyni zamanda, Zəngilan rayonundakı Arazboyu Dövlət Yasaqlığındakı Arazpalıdı və digər ağac növləri də ekoloji terrora məruz qalmışdır.

Təkcə Qubadlı şəhərinin mərkəzində təbiət abidələri olan 150–300 yaşlı Şərq çinarları, iri diametrli çoxillik qoz ağacları məhv edilmiş, 1960-cı illərdə salınmış, sahəsi 2 hektar olan meşə-park tamamilə məhv edilmişdir. Rəsmi məlumatlara görə, Ermənistanın ekoloji terroru nəticəsində su ehtiyatları, çaylar da çirklənməyə məruz qalmışdır. Bunun nəticəsidir ki, Azərbaycan ərazisindən keçən Araz çayının 43 kilometr hissəsində mikroflora və mikrofauna məhv edilib və suyun tərkibindəki ağır metalların xüsusi çəkisi normadan dəfələrlə çoxdur. Arazı ən çox çirkləndirən çaylardan biri Zəngilan rayonu ərazisindən axan Oxçuçaydır. Ermənistan dağ-mədən kombinatlarının yüz min tonlarla ağır metal duzlarını, turş suları Oxçuçayına axıdır, ekoloji terror törədir.

ETSN tərəfindən Ermənistanın törətdiyi ekoloji terrorla baglı ekologiya və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən 31 beynəlxalq təşkilata müraciət olunmuşdur. Hazırda işğaldan azad olunmuş ərazilərdə noyabr ayının 11-dən başlayaraq, müxtəlif növ ağaclar əkilir. Prezidentimiz çıxışlarının birində demişdir: "Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 29 oktyabr tarixli fərmanı ilə verilmiş tapşırıqlara əsasən ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılmış Əməliyyat qərargahlarında təmsil olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlər aparıblar.

Ermənistanın silahlı təcavüzü və işğalçılıq siyasəti nəticəsində Azərbaycana külli miqdarda maddi, mənəvi və ekoloji ziyan dəymişdir. Dəymiş ziyanın miqdarı dəqiqləşdirilərək hesabatı aparılacaq, bu barədə beynəlxalq səviyyədə məsələ qaldırılacaq və işğalçı Ermənistan vurdugu ziyanı kompensasiya şəklində ödəyəcəkdir.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə ekoloji durumun bərpa edilməsi istiqamətində işlərə rəvac verilmişdir. İşğaldan azad olunmuş Füzuli, Zəngilan və Ağdam rayonlarının ərazilərində əsasən Şərq çinarı olmaqla, ümumilikdə 2000-dək müxtəlif növ ağac əkilib, 100 kiloqramdan artıq palıd və digər ağac toxumları səpilib. Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyevin sözlərinə görə, ağacəkmə aksiyaları bu günlərdə Qubadlıda və Cəbrayılda da davam etdirilmişdir. Nazir müavini əlavə edib ki, ümumiyyətlə işğaldan azad olunmuş ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, ağacəkmə tədbirləri bütün Qarabağ bölgəsində hissə-hissə davam etdiriləcək.

Ermənilərin işğaldan azad edilmiş ərazilərimizdəki meşələrə vurduğu ziyanın aradan qaldırılmasını tezləşdirmək üçün orada əkin, toxum səpini və digər tədbirlər həyata keçiriləcək, amma qoruqlarda və milli parklarda bu tədbirləri həyata keçirmək mümkün olmayacaq.

Mütəxəssislərin fikrincə, qoruq və milli park ərazisində ağac əkmək konsepsiyaya uyğun deyil. Buna görə də qoruq və milli parklarda təbii bərpaya üstünlük veriləcək. Qoruq və milli parklarda təbii bərpa uzunmüddətli prosesdir. Burada bərpa işləri bir neçə il deyil, onillərlə aparılacaq.

Ermənilər genefondumuza elə ziyan vurublar ki, onun bərpası çox çətindir. Meşələrdə yaşıl örtük salınacaq, amma problem ondadır ki, 100 illik palıd meşəsinin bərpa olunması üçün 100 il vaxt lazımdır.

İşğaldan azad olunan ərazilərimizdə biomüxtəlifliyin qorunması üçün xüsusi mühafizə olunan təbii ərazilərimizin (qoruq və yasaqlıqlar) bərpası, həmçinin ekoturizmin inkişafı baxımından yeni kateqoriyalı milli parkların yaradılması gündəmdədir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 5 fevral.- S.5.